# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Aprel döyüşləri ordumuzun peşəkarlığını ortaya qoydu"



6


SƏS

№ 027 (7437)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

7 aprel 2026-cı il.
Qiyməti 1 manat


# Azərbaycan - Gürcüstan: regional sabitlik üçün VACİB MÜTTƏFİQLİK

Prezident İlham ƏLİYEV:
"Bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilir"



2

# ABŞ-İran:
## müharibəyə davam, yoxsa tamam?



3

"Azərbaycan-Gürcüstan münasibətləri yeni mərhələyə qədəm qoyub"



4

"Molla Nəsrəddin": 120 il əvvəl bizi deyib gəlmişdi...



5

"Ali məktəblərin Bakıdan bölgələrə köçürülməsi zəruridir"



7

Bura Azərbaycandır, həddinizi aşmayın!



6

Qohum evliliyi ilə bağlı qadağanı pozanları hansı cəza gözləyir?



4

# Azərbaycan - Gürcüstan: regional sabitlik üçün VACİB MÜTTƏFİQLİK

## Prezident İlham ƏLİYEV: "Bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilir"

Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Ölkələr arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Bu gün Azərbaycan və Gürcüstanın əsrlər boyu davam edən dostluq və mehriban qonşuluq əlaqələri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etməkdədir. Əlbəttə, son illərdə ölkələrimiz arasında mehriban dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsi hər iki dövlətin parlaq gələcəyinin təmin olunması üçün möhkəm əsas yaradıb. Gürcüstan və Azərbaycan arasında mövcud olan əlaqələr hər iki dövlətin gücünü artırmaqla yanaşı, onların regional və beynəlxalq arenalarda daha möhkəm mövqelərdən çıxış etmələrinə imkan verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 6-da Gürcüstana dövlət səfəri əlaqələrin müsbət dinamika ilə inkişafına əsaslanır. "Əminəm ki, mənim səfərim iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək". Bu sözləri Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə mətbuata bəyanatında söyləyib. Dövlətimizin başçısı qeyd edib: "Bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Azərbaycan və Gürcüstan hər zaman olduğu kimi, bir yerdədir". Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət ediblər.









### "BİZİM TARİXİ ƏLAQƏLƏRİMİZ DÖVLƏTLƏRARASI ƏLAQƏLƏR ÜÇÜN MÖHKƏM ZƏMİNDİR"

Səfər çərçivəsində Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü olub.

Söhbət zamanı Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, yaşıl enerji, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsində roluna toxunulub. Dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, məqsədlərə birgə nail olması əsas məsələlərdən biri olaraq diqqətdədir. Dövlətlər arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. "Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələr üçün möhkəm zəmindir", - deyə Prezident gürcü və Azərbaycan xalqlarının əsrlər boyu dostluq, qardaşlıq şəraitində yaşadıqlarını və bu gün bu ənənələrin davam etdirildiyini vurğulayıb: "Bu gün iki müstəqil dövlət kimi Azərbaycan və Gürcüstan inamla inkişaf edir". Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Bu münasibətlər çox dərin ənənələr üzərində qurulub. Azərbaycan-Gürcüstan münasibətləri daim yüksək səviyyədə olub. Dövlətlərarası əlaqələrimizin zəngin tarixi var. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. Bu münasibətlər tədricən siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrində strateji tərəfdaşlığa çevrilib. Bu gün hər iki ölkənin maraqları təkcə ikitərəfli əlaqələrlə məhdudlaşmır, həm də regional və qlobal layihələrdə birgə iştirakla daha da dərinləşir. Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri ötən illər ərzində dinamik inkişaf edib, ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olub. SİA xəbər verir ki, Azərbaycanın birinci xanımına muzey haqqında məlumat verilib. Muzeyin binası vaxtilə Tbilisidə yaşayan Mirzə Fətəli Axundzadənin vəsaiti ilə inşa edilib. Gürcüstanın azərbaycanlı ziyalılarının müraciətinə əsasən, 1982-ci ildə binada Mirzə Fətəli Axundzadənin ev-muzeyi yaradılıb. 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin Gürcüstana rəsmi səfərindən sonra bu mədəniyyət ocağı əsaslı təmir olunaraq, həmin vaxtdan mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir.Gürcüstan Prezidentinin Sərəncamına əsasən, 2007-ci ildə Mərkəzə Azərbaycan Mədəniyyəti Muzeyi statusu verilib və 2013-cü ildə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə burada əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Elə həmin il mayın 8-də keçirilmiş muzeyin açılış mərasimi Ulu Öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunub. Hazırda muzeyin nəzdində fəaliyyət göstərən mədəniyyət mərkəzində xalçaçılıq, musiqi, o cümlədən muğam, rəsm və dil kursları var.Əsas məqsədi mədəniyyətimizi və xalqımızın mədəni irsini Gürcüstanda qoruyub saxlamaq və təbliğ etmək olan muzeydə bu ölkədə fəaliyyət göstərən müxtəlif muzeylərin fondlarından Azərbaycanın mədəni irsinə aid əşyalar tədqiq edilir, onların sərgiləri keçirilir. Sonra Azərbaycanın birinci xanımı muzeyin xatirə kitabına ürək sözlərini yazdı. Uşaqlar tərəfindən toxunmuş kiçik xalçalar xanım Mehriban Əliyevaya hədiyyə olundu.

Azərbaycan Prezidentinin vurğuladığı kimi, bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir: "Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir". Prezident əlavə edib ki, Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi: "Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilir". Azərbaycan və Gürcüstanının beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı da məmnunluq doğurur. "Əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək", - deyən dövlət başçımız bildirib: "Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Cənab Baş nazir qeyd etdiyi kimi, hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik".

***Zümrüd BAYRAMOVA***

# ABŞ-İran: müharibəyə davam, yoxsa tamam?

**İran və ABŞ 6 apreldə qüvvəyə minəcək və Hörmüz boğazında gəmiçiliyin bərpasına səbəb ola biləcək hərbi əməliyyatların dayandırılması planı alıblar. Çərçivə planı Pakistan tərəfindən hazırlanıb və İran və ABŞ ilə paylaşılıb. Sənəddə dərhal atəşkəs elan edilməsi və sonradan hərtərəfli razılaşmanın bağlanması tələb olunur. Pakistan Ordusunun Baş Qərargah rəisi Asim Munir ABŞ-ın vitse-prezidenti J.D. Vance, xüsusi elçi Stiv Vitkoff və İranın xarici işlər naziri Abbas Araqçi ilə görüşüb.**

Təklifə görə, atəşkəs dərhal qüvvəyə minəcək və bu da Hörmüz boğazının açılmasına səbəb olacaq. Razılaşma tərəflərə daha geniş bir razılaşmanı yekunlaşdırmaq üçün 15-20 gün vaxt verir. Son sülh razılaşması İranın sanksiyaların aradan qaldırılması və dondurulmuş aktivlərin azad edilməsi müqabilində nüvə silahı əldə etməmək öhdəliyini özündə ehtiva edəcək. İranın yüksək vəzifəli rəsmisi nəşrə bildirib ki, Tehran təklifi araşdırır, lakin təzyiq altında qərar verməyəcək.

Reuters agentliyinin mənbəyi bildirib ki, İran müvəqqəti atəşkəs müqabilində Hörmüz boğazını açmayacaq. Mənbə bildirib ki, "Atəşkəsin bütün elementləri bu gün razılaşdırılmalıdır" və əlavə edib ki, ilkin razılaşma Pakistan vasitəçiliyi ilə elektron şəkildə imzalanmış anlaşma memorandumu kimi rəsmiləşdiriləcək.

Bu arada, Axios ABŞ, İsrail və danışıqlarla tanış olan regiondan dörd mənbəyə istinadən bildirir ki, ABŞ və İran regional vasitəçilər qrupunun iştirakı ilə 45 günlük atəşkəsin şərtlərini müzakirə edirlər. Onlar deyirlər ki, növbəti 48 saat ərzində razılığa gəlmək şansları azdır, lakin bu, hərbi əməliyyatların ciddi şəkildə artmasının qarşısını almaq üçün "son çarə"dir. Axios yazır ki, ABŞ və İran arasında danışıqlar Pakistan, Misir və Türkiyə vasitəçiləri, eləcə də xüsusi elçi Stiv Vitkov və İran xarici işlər naziri Abbas Ərаqçi arasında yazışmalar vasitəsilə aparılır. Mənbələrdən biri qeyd edib ki, Vaşinqton son günlərdə Tehrana bir neçə sülh təklifi çatdırıb, lakin hələlik heç biri qəbul edilməyib.

ABŞ 45 günlük atəşkəs əldə olunarsa, tərəflər müharibənin sona çatması üçün son şərtləri müzakirə etməyə başlayacaqlarını bildirir. Vasitəçilərin Tehrana növbəti 48 saatın razılığa gəlmək və genişmiqyaslı dağıntıların qarşısını almaq üçün son fürsət olduğunu açıq şəkildə bildirdikləri qeyd olunur. İran müharibə zamanı ABŞ və İsrailin vurduğu ziyana görə təzminat tələb edib və Hörmüz boğazının tam kompensasiya ödənilənə qədər bağlı qalacağını bildirib.

## Qətərə məxsus ilk tankerlər Hörmüzdən keçməyə çalışır

ABŞ və İsrail fevral ayının sonlarında İrana hücum etməyə başlayandan bəri bu günə qədər Hörmüz boğazından heç bir yüklü maye qaz tankeri keçməmişdi. Qətərdən maye qazla yüklənmiş iki tanker Hörmüz boğazının çıxışına doğru hərəkət etməyə başlayıb. Bloomberg agentliyinin məlumatına görə, əgər onlar Fars körfəzindən çıxa bilsələr, müharibə başlayandan bəri Qətər qazının Yaxın Şərqdən kənar alıcılara ixrac edildiyi ilk dəfə olacaq. Gəmi izləmə məlumatlarına görə, fevral ayının sonlarında Qətər maye qazı ixrac müəssisəsinə yüklənmiş "Əl-Dayan" və "Raşidə" gəmiləri Oman sahillərindən boğazın çıxışına doğru şərqə doğru hərəkət etməyə başlayıblar. Bu gəmilər son bir aydır ki, Fars körfəzində boş dayanıblar. "Əl-Dayan" tankeri dünyanın ən böyük Qətər maye qazı (LNG) alıcısı olan Çini təyinat yeri kimi göstərir. Lakin naviqasiya sistemlərindəki təyinat limanları qəti deyil və gəmilər elan etdikləri marşrutları istənilən vaxt dəyişə bilərlər.

ABŞ və İsrail fevral ayının sonlarında İrana hücumlara başlayandan bəri bu günə qədər Hörmüz boğazından bir dənə də olsun yüklü LNG tankeri keçməyib. İranla Ərəbistan yarımadası arasındakı strateji su yolunun blokadası qlobal bazarları dünyanın LNG tədarükünün təxminən beşdə birindən məhrum edib və qiymət şokuna səbəb olub. Ötən həftə sonu boğazdan yalnız bir LNG tankeri keçib, lakin onun çəkilişinə görə, o, boş olub.



## İsraildən "nöqtə atışları"

İran İslam İnqilabı Keşikçiləri Korpusu kəşfiyyat rəisinin ölümünü etiraf edib. İİKK mətbuat xidməti bazar ertəsi günü Tasnim-də bu barədə açıqlama yayımlayıb. Bəyanatda general Məcid Xademinin ölümü təsdiqlənib. 6 aprel səhəri İİKK-da kəşfiyyata rəhbərlik edən zabit İsrailin hücumunda həlak olub. Daha əvvəl İsrailin müdafiə naziri İsrael Katz hərbi zabitin ölümünü elan etmişdi. Xademi 2025-ci ilin iyun ayından İİKK kəşfiyyatına rəhbərlik edirdi. Onun sələfi də İsrailin raket zərbəsi nəticəsində həlak olmuşdu. Xatırladaq ki, İran ABŞ-İsrail müharibəsinin vurduğu ziyana görə təzminat tələb edib və tam kompensasiya ödənilənə qədər Hörmüz boğazının bağlı qalacağını bildirib.

## İsrail İran və Hizbullahın raketlərini hesablayır

Bu qiymətləndirmələr arasında İsrail tədricən müdafiə tədbirlərini mülki həyata qismən qayıtmaqla birləşdirməyə hazırlaşır. İsrail ordusunun hesablamalarına görə, bir neçə həftəlik müharibədən sonra İran ölkəyə çata bilən 1000-dən çox raket saxlayır. Bloomberg-in məlumatına görə, bu, İsrail hərbi brifinqləri zamanı bildirilib. Qeyd olunur ki, beş həftədən çox döyüşdən sonra belə, İsrail potensial olaraq uzunmüddətli qarşıdurmaya hazırlaşır. İsrail Hərbi Hava Qüvvələrinin zabiti bildirib ki, İranın hələ də İsraili vura bilən 1000-dən çox ballistik raketi var. Hizbullahın Livandakı arsenalının 8000-10000 qısa mənzilli raket olduğu təxmin edilir.

Bu qiymətləndirmələr arasında İsrail tədricən müdafiə tədbirlərini mülki həyata qismən qayıtmaqla birləşdirməyə hazırlaşır. İsrail hakimiyyəti yüksək raket təhlükəsinin davam etməsinə baxmayaraq, əyani təlimatları bərpa etməyi, hava səyahətlərini genişləndirməyi və ölkənin gündəlik əməliyyatlarını qismən normallaşdırmağı planlaşdırır. Bloomberg qeyd edir ki, müharibədən əvvəl İsrail İranın təxminən 2000 orta mənzilli ballistik raketə sahib olduğunu təxmin edirdi. Xatırladaq ki, ABŞ İranın raket arsenalının təxminən üçdə birini məhv etdiyini iddia edib. Bu arada, İran ABŞ və İsrailin əli çatmayan gizli silah və sursat anbarlarına sahib olduğunu iddia edir.

## Çin və Rusiyanın İrana dəstəyi

Kreml açıq şəkildə Tehranı müdafiə edərək, İran ətrafındakı böhranı "ABŞ və İsrailin səbəbsiz təcavüzünün" nəticəsi adlandırıb. Çin və Rusiyanın xarici işlər nazirləri Yaxın Şərqdəki mövcud vəziyyəti, xüsusən də regiondakı müharibəni, eləcə də İrana dəstək tədbirlərini müzakirə etdilər. Reuters agentliyi hər iki ölkənin xarici işlər nazirliklərinin bəyanatlarına istinadən xəbər verir ki, Çin qaynar nöqtədəki gərginliyin azaldılmasına kömək etmək üçün BMT Təhlükəsizlik Şurası çərçivəsində Rusiya ilə əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirib.

Agentliyin məlumatına görə, Çin xarici işlər naziri Vanq Yi ilə rusiyalı həmkarı Sergey Lavrov arasında telefon danışığı BMT Təhlükəsizlik Şurasının Hörmüz boğazında ticarət gəmiçiliyinin qorunması ilə bağlı Bəhreyn qətnaməsi üzrə səsverməsi ərəfəsində baş tutub. Çin xarici işlər naziri vurğulayıb ki, Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq Çin və Rusiya beynəlxalq ictimaiyyətin dəstəyini təmin etməyə və münaqişələrin həllində balanslı yanaşma tətbiq etməyə çalışmalıdırlar. "Hörmüz boğazındakı gəmiçilik problemlərinin əsas həlli mümkün qədər tez atəşkəsə nail olmaqdır. Çin həmişə münaqişələrin dialoq və danışıqlar yolu ilə siyasi həllini müdafiə edib", - deyə Vanq Yi bildirib.

Rusiya Xarici İşlər Nazirliyi öz növbəsində regionda "siyasi və diplomatik dialoq"a başlamaq lazım olduğunu bəyan edib. Bu arada, Kreml ABŞ və İsraili "səbəbsiz təcavüzdə" günahlandıraraq İranı müdafiə edib və onların fikrincə, bu, mövcud böhrana səbəb olub. Rusiyanın diplomatiyaya ehtiyac barədə açıqlamaları Ukraynadakı müharibəyə son qoymaq üçün həqiqi danışıqlardan imtina etməsi fonunda səslənir. Bu arada, Çin hərbi məqsədlər üçün istifadə olunan texnologiya və avadanlıqlarla Rusiyaya kömək etməyə davam edir.

Əvvəllər bildirilirdi ki, Rusiya, Çin və Fransa ərəb ölkələrinin Hörmüz boğazının zorla açılması üçün BMT Təhlükəsizlik Şurasının icazəsini almaq cəhdlərinə qarşı çıxırlar. Bu üç dövlətin nümayəndələri güc tətbiqinə icazə verəcək dilə qarşı olduqlarını bildiriblər.

## İranın Hörmüz şərtləri

Tehran Hörmüz boğazını yalnız müharibənin vurduğu maliyyə itkiləri ödənildikdən sonra tam açacağını bildirib. İran müharibənin vurduğu ziyana görə təzminat tələb edib və strateji baxımdan həyati əhəmiyyətli Hörmüz boğazının bu ziyan tam ödənilənə qədər bağlı qalacağını bildirib. Bu barədə İran Parlamentinin sədri Məhəmməd Bağır Qalibafın 5 apreldə dərc etdiyi açıqlamaya istinadən Clash Report məlumat yayıb.

İran hökumətinin müharibə itkilərini kompensasiya etmək üçün boğazdan keçən bütün gəmilərə xüsusi tranzit haqqı tələb edən yeni hüquqi mexanizm tətbiq etməyi planlaşdırdığı bildirilir. İran öz mövqeyini ABŞ-a kəskin ultimatumla müşayiət edərək, xüsusilə Donald Tramp administrasiyasını İsrail Baş naziri Benyamin Netanyahunun əmrlərini yerinə yetirməkdə ittiham edib. Tehran hakimiyyəti boğazın açılması üçün məcburi tədbirlərin uğursuzluğa məhkum olduğunu və ABŞ siyasətinin böyük regional fəlakətə səbəb ola biləcəyini vurğulayıb. İran liderləri hesab edirlər ki, təzminatların ödənilməsi gəmiçiliyin bərpası üçün zəruri şərtdir.

CNN həmçinin bildirir ki, Oman və İran son iki həftədir ki, Hörmüz boğazının tam açılması üçün mümkün variantlar üzərində danışıqlar aparırlar. Kanaldakı mənbənin sözlərinə görə, tərəflər kommersiya gəmiçiliyinin yenidən marşrutdan tam istifadə etməsinə imkan verə biləcək "təhlükəsiz keçid protokolu"nu müzakirə edirlər. Məlumatda deyilir ki, Pakistan və Misir də ABŞ və İran rəsmiləri arasında əlaqə saxlayan ölkələr arasında qalır, çünki vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq səyləri davam edir. Bu açıqlama Donald Trampın boğazın 7 aprelə qədər açılmadığı təqdirdə İranın enerji infrastrukturuna zərbə vurmaqla bağlı təhdidi fonunda səslənir. Eyni zamanda, Tehran Trampın təhdidlərini "cinayətkar düşüncənin sübutu" adlandırıb və "müharibə cinayətlərinə və insanlığa qarşı cinayətlərə təhrik"ə bərabərdir.

**V.VƏLİLİ**

# Normadan artıq yağıntının səbəbi nədir?

**Son günlər ölkəmizdə normadan artıq yağan yağışların və qeyri-düzgün quraşdırılmış kanalizasiya borularının yaratdığı fəsadlar getdikcə artır. Bayram tətili günlərində yağan yağışıntının fəsadları aradan qaldırılmamış ötən gün yenidən yağan yağış daha ciddi problemlərə səbəb oldu. Evlər, küçələr su altında qalıb, insanlar ərazidən təxliyə edilir, sakinlərin evinə və təsərrüfatına ciddi zərər dəyib.**





"The Guardian" yazır ki, dünyanın müxtəlif ölkələrində də yağıntıların normadan çox olması və ekstremal yağışların artması ilə bağlı fəsadlar yaranıb, yerli əhaliyə zərər dəyib. Erminio fırtınası iki gün əvvəl Yunanıstanın böyük bir hissəsini bürüyərək yerli əhaliyə çətinlik yaradıb, Cənub-şərqi İtaliya da güclü yağışa məruz qalıb, Əfqanıstanda ölümcül daşqınlar baş verib.

Aralıq dənizinin bəzi hissələri ötən həftə Erminio fırtınasından zərər gördü. Çərşənbə və cümə axşamı günləri güclü yağış, ildırım və ara sıra dolu yağması Yunanıstanın böyük bir hissəsinə təsir etdi, ən ağır şərait materikin cənub-şərq hissələrində və Krit də daxil olmaqla, cənubi Egey dənizindəki bir neçə adada müşahidə edildi, küçələr su altında qaldı və nəqliyyat vasitələrinə, evlərə ciddi zərər dəydi.

Ən güclü yağışların bir hissəsi çərşənbə günü Afinanı əhatə edən Attika bölgəsində yağdı, ən güclü yağışlar gecə yağışları oldu, sahil şəhəri Nea Makri xüsusilə çətin vəziyyətlə üzləşdi, cəmi iki saat ərzində təxminən 50 mm yağıntı qeydə alındı. Şəhərdə bir nəfərin cəsədi avtomobilin altından tapılıb, onun daşqın altında qalan evindən qaçarkən su altında qaldığı güman edilir.

Əlavə bir dağıntı Egey dənizindən keçən güclü küləklərin bir neçə ağacı yıxması və bir neçə bərənin zərər görməsi ilə nəticələndi. Şimali Afrikadan Yunanıstana gələn bu küləklər, həmçinin özləri ilə xeyli miqdarda Sahara tozunu gətirərək Krit adasını qalın narıncı-qırmızı buludlarla örtdü.

Cənub-şərqi İtaliyada da əhəmiyyətli yağışlar müşahidə olunub və bu da bir neçə çayın öz məcrasından çıxmasına səbəb olub. Cənubdakı Apennin dağlarının yüksək hündürlüklərində yağış qar şəklində yağaraq qeyri-adi dərəcədə yağıntı yığılmasına səbəb olub. Bəzi ərazilərdə 1,5 metr qalınlığında təzə qar qeydə alınıb və güclü küləklər böyük qar yığınlarının əmələ gəlməsinə səbəb olub. Marke bölgəsindəki dağlar üçün uçqun xəbərdarlığı edilir.

Əfqanıstanın şərqində geniş yayılmış daşqınlardan sonra 50-dən çox insanın öldüyü və yüzlərlə əmlakın dağıldığı bildirilir. Son bir həftə ərzində uzun müddət davam edən güclü yağışlar Mərkəzi Cənubi Asiyanın bəzi yerlərinə də təsir göstərib və geniş yayılmış daşqınlara səbəb olub. Əfqanıstanda aprelin əvvəlindən bəri bəzi əyalətlərdə 100 mm-dən çox yağış yağıb və daha güclü yağış gözlənilir.

50-dən çox insanın öldüyü, bir çoxunun isə ciddi xəsarət aldığı, əmlaka və infrastruktura böyük ziyan dəydiyi bildirilir. Təxminən 400 ev uçub, yüzlərlə ev ciddi ziyan görüb. 405 hektardan çox kənd təsərrüfatı, əkin sahəsi də dağılıb və təxminən 400 km yol şəbəkəsi ciddi şəkildə zədələnib. Qış mövsümündən sonra qar əriməsi ilə güclü yağışların üst-üstə düşməsi daha böyük zərərlərə səbəb olub.

Qonşu Pakistanda da, xüsusən də ölkənin şimal-qərbində güclü yağışlar, dolu, ildırım və güclü küləklər baş verib. Son iki gündə 30-dan çox rayonda qəfil daşqınlar baş verib, magistral yollara çıxış kəsilib, nəqliyyat vasitələri yollarda tərk edilib və 12 yaşlı qızın ildırım vurması halı da daxil olmaqla bir neçə nəfər ölüb.

Alimlər bildirirlər ki, 2025-ci ilin dekabr ayından bəri Cənubi Afrikada baş verən və ən azı 280 insanın ölümünə səbəb olan və təxminən bir milyon insana təsir edən dağıdıcı daşqınlar, iqlim dəyişikliyinin təsirləri ilə daha da güclənib. Regionun yağışlı mövsümü Mozambik, Esvatini, Madaqaskar, Cənubi Afrika və Zimbabvedə güclü təsir göstərərək 150.000 insanın didərgin düşməsinə və 105.000 hektar əkin sahəsinin məhv olmasına səbəb olub. Ən son olaraq, Gezani siklonu 10 fevralda Madaqaskara hücum edərək onlarla insanın ölümünə səbəb olub. Fırtına həmçinin daşqınlardan zərər çəkmiş Mozambikdə ölüm və ziyana səbəb olub.

İnsanların yaratdığı iqlim dəyişikliyinin ekstremal hava hadisələrində rolunu araşdıran beynəlxalq alim və qurumlar konsorsiumu olan World Weather Attribution (WWA) tərəfindən aparılan sürətli bir araşdırma, La Ni?a hava şəraiti ilə birlikdə istiləşmə iqliminin ekstremal yağışları daha da gücləndirdiyini aşkar edib.

"Ən təəccüblü tapıntı, cəmi 10 gün ərzində yığılan yağışın bölgənin orta illik yağıntı miqdarını aşması idi. Bu, misli görünməmiş bir hal idi", - deyə tədqiqatın aparıcı müəlliflərindən biri, Kral Niderland Meteorologiya İnstitutunun iqlimşünası və hava və iqlim modelləri üzrə tədqiqatçısı İzidin Pinto Mongabay-a bildirib. O, əlavə edib ki, bəzi hava stansiyaları cəmi 24 saat ərzində 200 millimetrdən (8 düym) çox yağış qeydə alıb.

Müəlliflər qeyd ediblər ki, zərər görmüş ərazilərdəki infrastruktur zəifliyi iqlim təsirlərini daha ölümcül və daha dağıdıcı edir. Pintonun sözlərinə görə, xüsusilə Mozambik bu cür güclü yağışa hazır deyildi. WWA alimləri dekabr ayından fevral ayının əvvəlinə qədər Mozambik, Cənubi Afrika, Esvatini (əvvəllər Svazilend kimi tanınırdı) və Zimbabvedə yağış mövsümündə 10 günlük maksimum yağıntı yığımlarını təhlil ediblər. Müəlliflər bu məlumatları iqlim modelləri ilə birləşdirərək aşkar ediblər ki, bu ölkələr ardıcıl yağışlı günlərin daha tez-tez baş verdiyinə və yağış hadisələrinin daha da intensivləşdiyinə şahid olublar.

Hazırkı yağış mövsümünə "La Nina" hadisələri təsir göstərib. Xatırlayırsınızsa bir müddət əvvəl qəzetimizdə bu təbiət hadisəsi ilə bağlı bir material da dərc emişdik. "La Nina" tropik Sakit Okeanın sularının qeyri-adi soyumasıdır və hər üç-beş ildən bir baş verir və dünya miqyasında hava şəraitinə təsir göstərir. Cənubi Afrikada La Nina güclü yağıntılarla əlaqələndirilir. La Nina şəraitində 10 günlük həddindən artıq yağış ehtimalı beş dəfə, yağış intensivliyi isə təxminən 20% artır. Əsas iqlim şəraitinin dəyişməsi ilə intensivlikdə bu artım hazırda 40%-dir.

"La Nina kimi təbii iqlim dəyişkənliyi hələ də yağışlı illərə təsir göstərir, lakin iqlim dəyişikliyi yağışlı illəri onilliklər əvvəlkindən xeyli yağışlı və daha zərərli edir", - deyə Pinto bildirib. WWA-nın araşdırması göstərib ki, zəif tikinti keyfiyyəti və qeyri-kafi infrastruktur daşqınlara məruz qalma və həssaslığı əhəmiyyətli dərəcədə artırıb. Daşqınlar səhiyyə müəssisələrinə ziyan vurub, dərman ehtiyatlarını məhv edib və insanların səhiyyə mərkəzlərinə çıxışını kəsib. Xatırladaq ki, sözügedən ərazi 2023-2024-cü illərin şiddətli quraqlığından da əziyyət çəkmişdilər. WWA tədqiqatı göstərir ki, yağışlardan təsirlənən ərazidə yaşayan insanların daşqınlarla mübarizə aparmaq üçün məhdud imkanları var və bu da yaxın gələcəkdə xəstəlik yayılması riskini artıra bilər.

Mozambik son bir neçə ay ərzində güclü yağışlardan ən çox zərər çəkib, çünki o, doqquz transsərhəd çayın aşağı axınında yerləşir. Munang bildirib ki, Cənubi Afrika və Zimbabvedə güclü yağışlar yağanda, nəzarətli bənd axıdılması artıq su altında qalan ərazilər əlavə su göndərib. Bundan əlavə, mozambiklilərin 90%-i günəşdə qurudulmuş torpaq, su və saman kərpiclərindən tikilmiş ənənəvi tikililərdə yaşayır və davamlı güclü yağış onların evsiz qalması deməkdir.

Yardım agentlikləri xəbərdarlıq edir ki, güclü yağışların təsirləri Mozambikin böyük hissələrində davam edən vəba xəstəliyinin yayılmasını daha da şiddətləndirə bilər. Su ilə keçən bir xəstəlik olan vəba riski insanların təmiz içməli suya və sanitariya qurğularına çıxışı azaldıqda artır.

***Lalə Mehralı***

## "Azərbaycan-Gürcüstan münasibətləri yeni mərhələyə qədəm qoyub"

"Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri təkcə protokol xarakterli diplomatik hadisə deyil, həm də regionda formalaşan yeni geosiyasi konfiqurasiyanın mühüm indikatorudur. Tbilisidə baş tutan bu səfər Azərbaycan-Gürcüstan münasibətlərinin strateji mahiyyətini bir daha nümayiş etdirməklə yanaşı, tərəflər arasında əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçidinin anonsu kimi qiymətləndirilməlidir."Bu fikirləri SİA-ya açıqlamasında Səs qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. Ekspert bildirib ki, bu səfərin əsas siyasi mesajı çoxşaxəli və aydın məzmun daşıyır. Belə ki, Bakı və Tbilisi regionda sabitliyin, təhlükəsizliyin və iqtisadi inteqrasiyanın əsas təminatçıları olaraq çıxış etdiklərini bir daha təsdiqləyirlər. Həm Cənubi Qafqazda yeni nəqliyyat və enerji xəritəsinin formalaşdığı bir dövrdə Azərbaycan-Gürcüstan tandemi strateji körpü rolunu gücləndirir, həm də bu səfər xarici təsir mərkəzlərinə ünvanlanan mesajdır ki, regionun gələcəyi məhz regional aktorların iradəsi ilə müəyyən olunur."Bu kontekstdə Mehriban Əliyevanın səfərdə iştirakı da xüsusi diqqət çəkir. Bu, münasibətlərin yalnız siyasi və iqtisadi deyil, həm də humanitar və mədəni müstəvidə dərinləşdiyini göstərir. Azərbaycan-Gürcüstan əlaqələri artıq klassik qonşuluq münasibətlərindən çıxaraq çoxölçülü strateji tərəfdaşlıq modelinə transformasiya olunmaqdadır.



Yeni mərhələnin əsas konturlarını isə belə xarakterizə etmək olar ki, enerji təhlükəsizliyinin genişlənməsi, Orta Dəhliz çərçivəsində tranzit imkanlarının artırılması, həmçinin regional sülh gündəliyinə koordinasiyalı yanaşma. Bu, xüsusilə Azərbaycan ərazilərinin işğaldan azad edilməsindən sonra yaranmış yeni reallıqlar fonunda daha da aktuallaşıb. Gürcüstan bu prosesdə etibarlı tərəfdaş kimi çıxış edərək regionun logistika və kommunikasiya mərkəzlərindən birinə çevrilməkdədir. Hesab edirəm ki, geosiyasi baxımdan səfərin əhəmiyyəti olduqca yüksəkdir. Qlobal güclər arasında rəqabətin artdığı, enerji və nəqliyyat marşrutlarının yenidən dizayn edildiyi bir dövrdə Bakı-Tbilisi xətti sabitlik adası kimi çıxış edir. Bu əməkdaşlıq modeli yalnız iki ölkənin milli maraqlarına deyil, həm də Avrasiya məkanında daha geniş iqtisadi və siyasi balansın qorunmasına xidmət edir.

Düşünürəm ki, Prezident İlham Əliyevin Gürcüstana səfəri bir daha göstərdi ki, Azərbaycan-Gürcüstan münasibətləri regionda strateji sabitliyin sütunlarından biridir və bu sütun üzərində qurulan yeni mərhələ artıq təkcə ikitərəfli deyil, qlobal əhəmiyyət daşıyan bir əməkdaşlıq platformasına çevrilməkdədir"-deyə, baş redaktor əlavə edib.

# "Molla Nəsrəddin":

## 120 il əvvəl bizi deyib gəlmişdi...




**"Molla Nəsrəddin" 120 il bundan əvvəl bizi - Azərbaycan xalqını, müsəlman qardaşlarını deyib gəlmişdi. Böyük demokrat yazıçı və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin ideyalarından, xalqını, millətini necə görmək istəyindən, dövrün ən müasir inqilabi məsələlərindən danışmağa, din pərdəsi altında min bir oyundan çıxıb milləti cəhalətə sürükləyən "ruhanilərin" iç üzünü açmağa gəlmişdi.**

### "Dəli" də oldu, "Lağlağı" da...

Gəldi və ana dilimizin qayğıkeşi oldu. Cəlil Məmmədquluzadə ömrünün sonunadək doğma dil uğrunda mübarizə apardı. Millət sevdasından "Dəli" olub, "bəlkə millətimə bu cür təsir edə bilərəm", - dedi. Bunun yetərli olmadığını görəndə düşüncələrindəkini "Lağlağı"lıqla anlatmağa çalışdı. "Yox, bundan da fayda olmadı, bunlarla yenə də milləti oyada bilmədim", - deyə fikirləşərkən "Molla Nəsrəddin" oldu. Vətənini el-el, oba-oba səyahətə çıxıb hər təbəqə ilə "öz dili" ilə danışmağa başladı, bəlkə oyanalar, bəlkə dəyişələr, - deyə.

Molla Nəsrəddin, ağsaqqal sözü dinlənilən olar, - deyib səni yuxuya getmiş bir xeyli müsəlmanı oyatmaqda ona kömək etməyə çağırmışdı böyük Cəlil Məmmədquluzadə. Bizə Mirzə Cəlildən danış, özündən söhbət aç, necə gəldin, səni necə qarşıladılar, necə yola saldılar, bundan söhbət et, biz də maraqla dinləyək...

- Cəlil Məmmədquluzadə "bu gün" idi. Milləti isə "dünən"də qalmışdı. Böyük canyanğısı ilə onları səsləyirdi: dünənlərdən bu günlərə səsləyirdi. Onu çox gözəl anlayırdım, ona görə də sözünü yerə salmağa haqqım yox idi. Gəldim, 1906-cı ilin 20 aprelində Mirzə Cəlilə köməyə gəldim və onun redaktorluğu ilə iyirmi beş il ərzində fəaliyyətimizi Tiflisdə, Təbrizdə və Bakıda böyük uğurla davam etdirdik. Gəldiyim gün üz tutdum millətə: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükamalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!.." edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəkləriniz ilə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza.Sözümü tamam etdim, ancaq bir üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışaram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir, amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: "Bala, ağlama, xortdan gələr, səni aparar" və siz dəxi canınızın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz. Hərdənbir ana dilini danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!"

### "Molla Nəsrəddin"in əsas qayəsi-ana dili

"Molla Nəsrəddin" fəaliyyətinə ana dilini qorumaqla başlamışdı. Çünki milləti yuxudan oyatmaq üçün lazım olanların ən ümdəsi dil idi. O, "Dil" ucbatından "Anama de ki, Fatmanın oğlu oldu"nu "Fatmanın oğlu öldü" kimi oxuyub az qala bir ananın ürəyini partladan Molla Cəfəri ittiham etmədi, dilimizi bəyənməyib başqa dildə danışan "Bizim"obrazovannı"lar"ı qofta (küftə) atəşinə tutmadı, "Meymunlar" kimi bir-birini yamsılayıb özgə dildə danışın, Fatmanı "Fatya", Həsəni "Qasanka" Münəvvəri "Varya" çağıranlara qarşı üsyankar olmadı? "Əlifba" dan söhbət açıb millətin yarısının ərəb, fars, bir yarısının da rus dilində danışmasını səhifələrinə çıxarıb "Molla Nəsrəddin"in münasibətini bildirmədi? Öz dilində danışmayanları qınamaq necə olar ki? Bax, "Molla Nəsrəddin" belə yazmışdı: "... Allah atana rəhmət eləsin, bəs ta hanı türk dili? Qardaş, zarafat deyil ki, dilimizdən iyrənirik, vəssalam!Uca papaqlılarımız bir-birinə kağız yazanda yazır: "və nigarani nədarim səvayi əz duri və mofariqəti şoma".

Alçaq papaqlılarımız da bircə il qorodskoy şkolada uçit eləyəndən sonra küçədə bir iznakomini vstret eləyəndə o saat şapqasını çıxarıb deyir:

- İzdrasti, bacalusqa".

### Vətəndaşlıq qayəsi

Cəlil Məmmədquluzadənin "Azərbaycan" məqaləsi onun vətəndaşlıq qayəsi idi: " Bəzi vaxt otururam və papağımı qarşıma qoyub fikrə gedirəm, özümdən soruşuram ki:

- Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.
- Dilim nə dilidir?
- Azərbaycan dilidir.
- Yəni Vətənim haradır?
- Azərbaycan vilayətidir.
- Haradır Azərbaycan?
- Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir

Böyük mirzəcəlilşünas, akademik İsa Həbibbəyli özünün "Cəlil Məmmədquluzadə - Milli İstiqlal ədəbiyyatının sərkərdəsi" adlı məqaləsində yazır: "1917-ci ildə yazılmış "Azərbaycan" məqaləsində Mirzə Cəlil vaxtilə Şah İsmayıl Xətainin qılıncı ilə çəkdiyi Azərbaycan xəritəsini böyük məharətlə qələmi ilə cızmışdır. "Azərbaycan" məqaləsi Cəlil Məmmədquluzadənin Azərbaycançılıq konsepsiyasının bəyannaməsidir: Cəlil Məmmədquluzadə Azərbaycan xalqı üçün Vətən, millət və ana dilindən başqa nicat yolu olmadığını var-gücü ilə car çəkmişdir. Vətən, millət və dil məsələləri Cəlil Məmmədquluzadə yaradıcılığının əsas sütunlarıdır".

### "Molla Nəsrəddin" nə deyirdi?..

Cəlil Məmmədquluzadə qələmi və "Molla Nəsrəddin"i ilə birlikdə azad Vətən, xoşbəxt millət naminə axtarışa çıxmışdı. Hələ "Mozalan", "Hop-hop", "Lağlağı", "Hərdəmxəyal" millət, Vətən adına bir qulluq eləmək niyyətilə rusların "zadaça" dediyi 18 məsələdən ibarət "Təzə təlim kitabı" cəm etmişdilər ki, cəmiyyətin bütün eybəcərlikləri bu məsələlərdə öz həllini tapmışdı. Amma nə fayda? Bunları dərk edən kim idi? "Niyə məni döyürsünüz?" - deyib, "Niyə mən dərsdən qaçdım"ı anladanın: - "A mollalar, niyə məni döyürsünüz? Olmaya məndən qorxursunuz? Olmaya qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm? Olmaya qorxursunuz ki, məcmuəmin vərəqlərini nökərlər samovar alışığı edə-edə və şəkillərini uşaqlar oynada-oynada axırda camaat gözünü açıb bəzi işlərdən xəbərdar ola?" səsinə səs verən kim idi?

"Molla Nəsrəddin" deyirdi ki, "Biz" "Nə vaxt" , "Bəs nə vaxt" "Azadiyi-vicdan" olacağıq. "Fürsət" tapıb" xalqa "Bir para sözlər" dinlədib, "Oktyabr kimin bayramıdır?"ı açıqlaya və onlara "İnqilab lazım" olduğunu anlada biləcəyik? "İfratın mənfəəti"nin "Tərəqqi əlamətləri" olduğunu "Müsəlman içində gördüklərim"dən fərqliliyini sübut edə biləcəyik?

### Həm yazılarla, həm şəkillərlə

"Molla Nəsrəddin" milləti doğru yola tək yazmaqla deyil, həm də şəkillərlə, karikaturalarla dəvət edirdi. Jurnalın rəngarəng çıxmasında, bəzən şəkillərin, karikaturaların sanki "dil açıb" danışmasında rəssamlar - Əzim Əzimzadə, Oskar Şmerlinq, İosif Rotterin böyük əmökləri olmuşdur.

Birinci nömrənin üz qabığında həmvətənlərimizi yatmış vəziyyətdə göstərən bir rəsm çəkilib dərc edilmişdi. Bununla da ümumi amal və məqsəd ortaya qoyulmuşdu: onları oyandırıb söylədiklərinə qulaq asmağı xahiş etmək. Çünki "Molla Nəsrəddin"i Azərbaycan xalqının min illərdən bəri davam edib gələn dərdləri çox düşündürürdü. Bu dərdlər içərisində dini fanatizm daha dəhşətlisi idi. O dövrün cəmiyyətində dini əldə rəhbər tutub bundan yararlanan ruhanilərə hər addımda rast gəlinirdi. Onların sayı sanki yağışdan sonra çıxan göbələklər kimi gündən-günə artırdı. Dinin mahiyyətini bilməyənlərə, bundan sui-istifadə edib camaatın malını tar-mar edənlərə, onları mövhumata sürükləyib elmdən, təhsildən yayındıranlara, azadlığı, intibahı din pərdəsi altında kəsib-doğrayanlara qarşı "Molla Nəsrəddin" üsyan edib deyirdi: - "Əvvələn, mən molla ola-ola müsəlman qardaşlarıma vəz edən vaxt deyirəm: Bir Allaha sitayiş edin, bir də Peyğəmbərə və imamlara itaət edin. Amma siz deyirsiniz: Allaha da sitayiş edin, Peyğəmbərə də, imamlara da, mollalara da, dərvişlərə də, ilan oynadanlara da, fala baxan, tas quran, dua yazan, cadukün, həmzad, əcinnə, kəlilə, dimnə, şeytan, div, mərrix, sərrix, tərrix, amax, saşan, küflə qurdu, mığmığ, mozalan - bunların cümləsinə sitayiş edin!...Mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaşlara deyirəm: ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız; amma siz mollalar deyirsiniz: ey müsəlmanlar, gözünüzü yumunuz, mənə baxınız....Mən də mollayam, siz də mollasız. Amma bir balaca təfavütü budur ki, mən heç olmasa bir parça qalın kağız üstünə bir neçə nağıl-nuğul yazıb ilan-qurbağa şəkli çəkirəm ki, oğul-uşaq şəkillərə baxıb gülsünlər və nökərlər kağızını alışıq edib, asanlıq ilə ocağı yandırsınlar... Siz mollalar deyirsiniz:

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın!
Yatmışları razı deyiləm kimsə oyatsın.
Tək-tək ayılan varsa da haqq dadıma çatsın!
Mən salim olum, cümlə cahan batsa da batsın!
Millət necə tarac olur-olsun, nə işim var?
Düşmənlərə möhtac olur olsun, nə işim var?"

### Cəlil Məmmədquluzadəni dinsizliklə ittiham edirdilər

"Molla Nəsrəddin" Azərbaycanda milli satirik mətbuatın və tənqidi-realist ədəbiyyatın əsasını qoymuşdu. Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri kimi görkəmli sənətkarları öz ətrafında toplayan dərgi açıq söz söyləyirdi, düz yol göstərirdi. Yalanı qamçılayırdı, haqsızlığı kəsirdi, ədalətsizliyə meydan oxuyurdu, fırıldaqçılara müharibə elan edirdi. Məqsəd dövrün ziyalılarının düşüncələrindəki Azərbaycanı görmək idi. Azərbaycan xalqını, millətini hər xalqdan, millətdən öndə görmək idi. Onları fanatizm, mövhumat girdabında yox, inkişaf, intibah yollarında görmək idi. Elə bütün bunlara görə də məlum qüvvələr Mirzə Cəlili dinsizliklə, "Molla Nəsrəddin"i Allahsızlıqla damğalamaq istəyirdilər.

Gəlin, görək, o, necə Allahsız idi ki, ədəbiyyat aləmi ilə tanışlığa böyük İslam şairi, dahi Məhəmməd Füzulinin əsərləri ilə başlamışdı? O necə Allahsız idi ki, "Molla Nəsrəddin" jurnalının adının "Allahsız" adı ilə əvəzlənməsinə qəti şəkildə etiraz edib, "Allah olmayan yerdə mən yoxam", - demişdi? O necə Allahsız idi ki, yaşadığı ev dəfələrlə axtarışlara məruz qalmışdı? Nə axtarırdılar, "Allahsızın" evində?

"Molla Nəsrəddin" bu və digər səbəblərdən də yeni dövrün sərt tənqid, qınaq və təqiblərinə məruz qaldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında əvəzsiz xidmətləri olan, sovet dövrü kimi ağır rejimdə təzyiqlər altında işini davam etdirib sözünü deyə bilən, milli şüuru formalaşdıran jurnal 1931-ci ildə öz fəaliyyətini dayandırdı. 1932-ci ildə isə böyük mütəfəkkir-yazıçı Cəlil Məmmədquluzadə dünyasını dəyişdi. Elə Mirzə Cəlilin jurnalın nəşrinin dayandırılmasından cəmi bir il sonra ölümünə səbəb ona qarşı haqsızlıqlar, səhv başa düşülməsi oldu. O, bu haqsızlığa dözə bilmirdi. Hələ neçə-neçə nəşr olunmamış gözəl əsərləri də var idi ki, hamısını yandırdı. Kaş ki əsərlərini yandırarkən onun üzündəki "Od əllərimi, qəlbimi, yoxsa əsərlərimi yandırır?" ifadəsini görən olardı

Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında ölkə Prezidentinin Sərəncamı, böyük ədibin ayrı-ayrı illərdə keçirilən yubileyləri, Bakıda və doğulduğu doğma Naxçıvanda ev-muzeylərinin yaradılması, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeylərinin açılması, heykəlinin ucaldılması, teatr, muzey, şəhər, qəsəbə, kənd və küçələrə adının verilməsi, əsərlərinin səhnələşdirilməsi, külliyyatının dəfələrlə, hətta latın qrafikası ilə nəşri, kitabxanalara hədiyyə edilməsi, onun ölməz irsinə sonsuz sevginin, sayğının göstəriciləridir. Kaş ki gəlib sizin qələmlə becərdiyiniz, bizlərin isə qanla cücərtdiyimiz istiqlalımızı görə bilərdiniz. Kaş ki yaralarınıza məlhəm olacaq ana dili haqqında qanunlarımızla tanış ola, ana dilinə ucaldılan abidələrimizi görə bilərdiniz. Həmfikirlərinizi, nəşr olunan çoxsaylı qəzet və jurnalları, onlara verilən söz, mətbuat azadlığını görə bilərdiniz. Şəhər, qəsəbə, kəndlərimizdə uşaqların oxuduqları məktəbləri, respublikamızdakı ali məktəblərdə, xarici ölkələrdə təhsil alan gənclərimizi, gəncliyimizin intellektual səviyyəsini görə bilərdiniz. Kaş ki ölkəmizdəki dini tolerantlığı, sizin yaralı yeriniz olan Aşura günlərində qanvermə aksiyalarının xalqın neçə-neçə övladına həyat verdiyini görərdiniz. Kaş ki görə bilərdiniz: bir əsr öncəkindən çox fərqli bir əsr sonranı

*Mətanət Məmmədova*

# Hörmüz boğazını Zəngəzur dəhlizi əvəz edəcək

## Zəngəzur və Hicaz Dəmir Yollarının açılması qlobal enerji daşınmalarını asanlaşdıracaq




Dünyada hökm sürən müharibələr, münaqişələr fonunda diqqətçəkən qarşıdurma Rusiya ilə Ukrayna arasında gedən müharibə, eləcə də ABŞ və İsrailin fars- molla rejimini sıradan çıxartmaq üçün apardıqları əməliyyatlardır. Məlumatlara istinadən qeyd etmək olar ki, artıq fars-molla rejimi son günlərini, bəlkə də son saatlarını yaşayır. Yaxın saatlarda molla rejiminin təslim olduğu xəbəri yayıla bilər. Çünki ABŞ və İsrailin molla rejiminə qarşı hərbi əməliyyatlarının başlanmasından bəri torpaqlarda ümumilikdə 20 minə yaxın hərbi obyekt, siyasi mərkəz sıradan çıxarılıb. ABŞ və İsrail qüvvələri molla rejiminin 120-dən çox gəmisini məhv edib. Bununla yanaşı molla rejiminin bütün siyasi, hərbi rəhbərləri öldürülüb.

Diqqətçəkən məqam ondan ibarətdir ki, fars-molla rejimi çökməkdə olduğunu anladığından region ölkələrini hədəfə alır. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və İraq mütəmadi olaraq molla rejimnin raket və dron hücumlarına məruz qalır. Eyni zamanda rejim qlobal enerji böhranı yaratmaq üçün Hörmüz boğazından keçməli olan neft tankerlərinə problemlər yaradır. Gəmilər zərbələrə məruz qalmamaq üçün Hörmüz boğazından keçiddən imtina etməyə başlayıblar. Bu da dünyada ciddi şəkildə enerji böhranı yaradıb. Dənizlə daşınan dünya xam neftinin təxminən üçdəbiri bu dar su yolundan keçir. Gündə orta hesabla 20 milyon barel xam neft daşıyan təxminən 100-110 tanker qlobal bazarlara çıxmaq üçün boğazdan keçir. Bu məbləğ qlobal neft istehlakının təxminən 20%-ni təşkil edir.

### Hörmüz boğazı aktuallığını itirir

Hərbi əməliyyatların keçirildiyi hazırkı məqamda fars-molla rejiminin boğazın şimal sahillərinə nəzarət etməsi, vaxtaşırı keçidi məhdudlaşdırması dünyada neft qiymətlərinin bahalaşmasına gətirib çıxarıb. ABŞ prezidenti Donald Tramp Hörmüz boğazının açılması ilə bağlı ziddiyyətli açıqlamalar verir. Yəni gah deyir ki, boğazın açılmasına nail olacaqlar, gah da bildirir ki, dəniz yolunun açılmasında maraqlı deyillər. Hətta Tramp boğazın açılması üçün Avropa ölkələrinin səylər göstərməli olduqlarını qeyd edir. Ötən gün jurnalistlərə açıqlamasında ABŞ prezidenti bildirdi ki, biz çox tezliklə gedəcəyik: "Əgər Fransa və ya başqa bir ölkə neft və ya qaz istəsə, boğazdan, Hörmüz boğazından keçəcək, birbaşa ora gedəcək və özlərinə qulluq edə biləcəklər. Əslində, düşünürəm ki, bu, çox təhlükəsiz olacaq, amma bizim bununla heç bir əlaqəmiz yoxdur. Boğaza nə olacaq? Bizim bununla heç bir əlaqəmiz olmayacaq, çünki həmin ölkələr, Çin, ora gedəcək, gözəl gəmilərini yanacaqla dolduracaq, dənizə çıxacaq və özlərinə qulluq edəcək. Bizim bunu etmək üçün heç bir səbəbimiz yoxdur".

Dünyada yaranan enerji böhranın aradan qaldırılması üçün müxtəlif təkliflər irəli sürülür, Suriya İqtisadiyyat və Sənaye Nazirliyinin məsləhətçisi Usamə əl-Qadi Hörmüz boğazından asılılığı azaldacaq enerji daşınması üçün alternativ quru yolları yaratmaq üçün strateji təşəbbüs irəli sürüb. Layihəyə müasir yüksək sürətli şəbəkənin bir hissəsi olaraq Hicaz Dəmir Yolunun dirçəldilməsi daxildir. Şimalda Türkiyəni cənubda Səudiyyə Ərəbistanının Mədinə şəhəri ilə birləşdirmək və Suriya ilə Səudiyyə Ərəbistanı arasında İordaniya vasitəsilə yüksək sürətli dəmir yolu əlaqəsi təmin etmək planlaşdırılır. Bu marşrut təhlükəsiz quru dəhlizləri vasitəsilə gündə təxminən 7 milyon barel neft nəql edə biləcək.

### Zəngəzur dəhlizinə diqqət artır

Bu arada Türkiyə, Pakistan və ərəb ölkələri Zəngəzur dəhlizinin açılmasının tezləşdirilməsinin vacibliyini irəli sürüblər. Məlumdur ki, Zəngərur dəhlizi strateji əhəmiyyətinə və qlobal gücünə görə Hörmüz boğazından geri qalmır. Əgər dəhlizin açılması tez bir zamanda baş tutarsa bu Hörmüz bağazı kimi təkcə iqtisadi deyil, həm də böyük güclərə təsir etmək imkanına dəhliz olacaq. Hörmüz boğazı ilə Zəngəzur dəhlizinin fərqi yalnız ondan ibarətdir ki, birinci su, ikinci isə quru yoludur. Zəngəzur dəhlizin uzunluğu 40 kilometr, eni isə 15 kilometrə yaxın olacaq. Hörmüz boğazının uzunluğu 50 kilometr, eni isə 33 kilometrdir. Dünyanın istənilən nöqtəsindən Zəngəzur dəhlizi vasitəsi ilə yükdaşınmalar həyata keçirmək mümkün olacaq. Xüsusilə də, Zəngəzur dəhlizi vasitəsi ilə Çindən, Hindistandan, Orta Asiyadan Türkiyə və Avropaya məhsullar daşınması təmin olunacaq. Bu isə tarixi İpək yolunun bərpası deməkdir. Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyasındakı çıxışında demişdir: "Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə verməşdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm". Bir sözə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə dünyada enerji böhranı tamamilə aradan qalxacaq. Fasiləsiz və təhlükəsiz daşınmalar dəhlizə böyük üstünlüklər gətirəcək. Bu üstünlükdən yalnız region deyil, dünyanın istənilən ölkəsi və xalqları bəhrələnmək imkanı qazanacaq.

***İLHAM ƏLİYEV***



MƏTANƏT

# Bura Azərbaycandır, həddinizi aşmayın!

Biz qrafiti( cızma-qara) ilə bəzi Avropa ölkələrində, qonşu Türkiyədə, eyni zamanda onlara məxsus filmlərdə, seriallarda rastlaşmışıq. Hər dəfə də bunu pis hal kimi qarşılamışıq. Kimi sevirsənsə, nə üçün bunu divara əks etdirməlisən? Kimi söymək istəyirsənsə, bu, nə üçün divarlarda əks olunmalıdır? Kimin ağlına bir rəsm çəkmək gəlirsə, bunu nə üçün divarlara çəkməlidir. Həm də şəhərlərin ən görkəmli binalarından tutmuş məhəllə hasarlarının divarlarınadək... Bu, qeyri-etik davranışın nümayişindən başqa heç bir şey deyil.

Ağıllı, özünə hörmət edən insan nə üçün küçədə əlinə boya alıb divarlarda yazı yazıb, şəkil çəkməlidir? Onu bu hərəkəti etməyə sövq edən nədir? Əlbəttə, bunu psixoloji çatışmazlıq da adlandırmaq olar, özbaşınalıq da, nəzakətsizlik və nəzarətsizlik də.

Lakin biz ölkəmizdə-istər kəndlər, şəhərlər, istərsə də paytaxt olsun, belə hallara rast gəlməmişik. Bizim uşaqların, eləcə də digər yaş qrupunda olan şəxslərin tərbiyəsində divar yazmaq "mədəniyyəti" olmayıb. Çünki evdə, həyət divarlarında kiçik bir yazı, rəsm görəndə dərhal övladımıza etirazımızı bildirib silməyə məcbur etmişik. Çox yaxşı da ki, belə etmişik. Görünən odur ki, uşaqlara vaxtında düzgün tərbiyə verəndə gələcəkdə bunun bəhrəsini görmək olur. Əks təqdirdə isə ABŞ-də, digər Avropa ölkələrində və Türkiyədəki kimi bu cızma-qaralar evlərimizin divarlarından yaşadığımız kənd-şəhərlərdəki tarixi-mədəni abidələrə, inzibati binalaradək, istənilən bina və hasar divarlarınadək gedib çıxardı. Və bütün bunlar yaşadığımız yerin estetik görünüşünə xələl gətirdiyi kimi, bizim də gözümüzü yorar, zövqümüzü korlayardı. Elə buna görə də bu günlər Nizami Kino Mərkəzinin divarına qrafiti çəkilməsini anormal hal kimi qəbul etdik və bu məsələdən hər birimiz ciddi şəkildə narahat olduq. Çünki dediyimiz kimi, bu qeyri-etik davranış bizim cəmiyyətə yaddır.

Təbii ki, aid qurumlar tərəfindən məsələ aydınlaşdırılıb, günahkarlar cəzalandırılıb. Lakin bu, kifayət etmir. Biz uşaqların tərbiyəsi ilə nə dərəcədə məşğul oluruq, bax, bu suala cavab vermək lazımdır. Onları necə tərbiyə edirik ki, gedib şəhərin mərkəzində mədəniyyət müəssisəsinin binası üzərinə cızma-qara edirlər?

Belə məsələlərdə həm valideynlər, həm məktəb kollektivləri ayıq-sayıq olmalıdır. Biz cəmiyyətimizə belə dırnaqarası mədəniyyətlərin daxil olmasının qarşısını vaxtlı-vaxtında almasaq, sabah nəticəsi heç də yaxşı olmaz. Hər zaman belə olub, həm də bütün cəmiyyətlərdə. Nə isə baş verib, cəza tədbirləri ilə qarşısı alınmayan məsələlər böyüyüb, sarmaşıq kimi cəmiyyəti bürüyüb. Bir zaman kiçik bir məsələ kimi baxdığımız adi bir hal sabah elə böyük faciə ilə nəticələnib ki, belə olacağına özümüz də inanmamışıq. Lakin fakt ortada olub. Hər kəs öz övladı, təhsil verdiyi şagird üçün cavabdehdir. Uşaqların tərbiyəsində bir qədər ciddi olaq. Telefonlara, sosial şəbəkələrə, dostlarla, rəfiqələrlə görüşlərə, söhbətlərə ayırdığımız vaxtdan kəsib bir qədər uşaqların tərbiyəsi ilə məşğul olaq ki, onlar hədlərini aşmasınlar. Dövlətimiz bizim istirahətimiz üçün mədəniyyət müəssisələri, parklar, bulvarlar və sair onlarla istirahət obyekti yaradır, bizimsə borcumuz onları göz bəbəyi kimi qorumaqdır. Və yaxud da hər hansı bina, divar olsun, bunu yazmaq, şəkil çəkmək nə deməkdir? Həddimizi aşmayaq!

Onu da unutmayaq ki, bu cür qrafiti sənət növü deyil. Bunun sənət növü olanı tamamilə ayrıdır, yəni özündə bir məna ehtiva edir və o, hüquq nöqteyi-nəzərindən hər yerdə çəkilə bilməz. Bunları uşaq-yeniyetmə və gənclərə aşılayaq!



# "Aprel döyüşləri ordumuzun peşəkarlığını ortaya qoydu"

"Aprel döyüşləri Azərbaycan xalqının qəhrəmanlıq tarixində xüsusi yer tutan, milli iradəmizin, ordumuzun gücünün və dövlətimizin qətiyyətli mövqeyinin parlaq təcəssümüdür. 2016-cı ilin 2-5 aprel tarixlərində baş verən bu döyüşlər zamanı Azərbaycan Ordusu düşmənin təxribatlarına sarsıdıcı cavab verdi, strateji əhəmiyyət daşıyan bir sıra mövqeləri, o cümlədən Lələtəpə yüksəkliyini nəzarətə götürdü".

Bu sözləri SİA -ya açıqlamasında Millət Vəkili Ülviyyə Həmzəyeva bildirib. Onun sözlərinə görə, Müdafiə Nazirliyinin materiallarında da qeyd olunduğu kimi, Aprel döyüşləri Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnmiş, Talış ətrafındakı yüksəkliklər, Lələtəpə istiqaməti və digər mühüm mövqelərdə üstünlük təmin edilmişdir.

Bu şanlı qələbə bir daha göstərdi ki, Azərbaycan heç zaman işğal faktı ilə barışmayıb və öz ərazi bütövlüyünün bərpası istiqamətində həm siyasi, həm də hərbi baxımdan qətiyyətli mövqe nümayiş etdirib. Prezident İlham Əliyevin vurğuladığı kimi, Aprel döyüşləri dövlətimizin, xalqımızın və ordumuzun gücünü göstərən şanlı hərbi qələbə idi. Bu döyüşlər Azərbaycan xalqına yeni inam verdi, ordumuzun peşəkarlığını ortaya qoydu və gələcək böyük Zəfərin qaçılmaz olduğunu nümayiş etdirdi. Aprel döyüşlərinin tarixi əhəmiyyəti yalnız hərbi müstəvidə ölçülmür. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində illərlə düşmən atəşi altında qalan Cocuq Mərcanlıya həyat qayıtdı. Bu, Aprel zəfərinin yalnız cəbhə xəttində deyil, insan talelərində, doğma torpağa dönüş arzusunda, milli ruhun dirçəlişində də nə qədər böyük rol oynadığını göstərdi. Bu mənada Aprel döyüşləri xalqımızın mənəvi yaddaşında təkcə hərbi uğur deyil, həm də qayıdışın, dirçəlişin və ədalətin təntənəsi kimi yaşayır.

Bu döyüşlər həm də 2020-ci ildə qazanılmış tarixi Zəfərə aparan yolun mühüm başlanğıcı oldu. Müdafiə Nazirliyinin yayımlarında Aprel döyüşlərindəki qələbə İkinci Qarabağ müharibəsindəki tarixi zəfərin başlanğıcı kimi dəyərləndirilir. Məhz həmin günlərdə Azərbaycan əsgəri sübut etdi ki, torpaqlarımızın azadlığı uğrunda mübarizə həm xalqın iradəsinə, həm də güclü dövlətin sarsılmaz siyasətinə söykənir.

Bu gün Aprel döyüşləri şəhidlərimizin müqəddəs xatirəsini dərin ehtiramla anmaq, qazilərimizin qəhrəmanlığını yüksək qiymətləndirmək və gənc nəsildə vətənpərvərlik ruhunu daha da möhkəmləndirmək üçün xüsusi əhəmiyyət daşıyır. Aprel döyüşləri tariximizin şərəfli səhifəsidir. Bu səhifə Azərbaycan əsgərinin rəşadəti, xalqımızın birliyi və dövlətimizin qətiyyəti ilə yazılmışdır. Heç şübhəsiz, bu şanlı tarix milli yaddaşımızda daim yaşayacaq və gələcək nəsillərə qürur mənbəyi olacaq".

***Günay Hacıyeva***

# İtirdiyimiz xüsusiyyətlər: mərdlik



XXV YAZI

Birinin ən gözəl xüsusiyyətlərini təsvir edərkən cəsur, dürüst, şərəfli sözləri ilə yan-yana çəkilib mərd sözü həmişə. Mədəniyyətimizdə, mahnılarımızda, şifahi və yazılı ədəbi nümunələrimizdə mərd sözünə o qədər tez-tez rast gəlinir ki, günümüzdə yoxluğunun bu qədər çox hiss ediləcəyini o zamanlar heç birimiz düşünməzdik.

Əsrlər boyu insanları mənən gücləndirən, onları motivasiya edən, yaxşılığı, insanlığı tərənnüm edən xüsusiyyət olub mərdlik. Bəzən adına dürüstlük, bəzən kişilik, bəzən cəsarətli və ya cəsur demişik, nəticədə hamımız eyni xüsusiyyəti nəzərdə tutmuşuq. Obrazlı dillə desək, dürüstlük insanın xarakterini fermentləşdirir, kişilik onu yoğurur, mərdlik isə bişirir.

Fəlsəfə elmi mərdliyi insanın ən əsas əxlaqi keyfiyyətlərindən biri hesab edir. Aristotel mərdliyi "qorxu ilə məsuliyyət arasında düzgün tarazlıq" kimi izah edirdi. Psixologiyada da mərdlik insanın qorxuya nəzarət etmə qabiliyyəti kimi izah olunur. Psixoloqlar deyir ki, hər bir insan qorxu hiss edir, lakin mərd insan qorxunun davranışını idarə etməsinə imkan vermir. Psixolojiya elmi mərdliyin əsas psixoloji komponentlərini özünə inam, məsuliyyət hissi, məqsəd və dəyər sistemi, eləcə də riskə hazır olmaq kimi izah edir.

Cəmiyyət üçün isə mərdlik etibar və təhlükəsizlik yaradan keyfiyyətdir. Sosial həyatımızda mərdliyi zəifləri qorumaq, ədalətsizliyə qarşı çıxmaq, ictimai nizamı qorumaq, liderlik formalaşdırmaq kimi müşahidə edirik. Tarix boyu cəmiyyətlər qəhrəmanları məhz bu keyfiyyətə görə ucaldıb. Düşmən də olsalar tərəflər bir-birinə qarşı namərdlik etməz, haqqını yeməzdi. Döyüşdə kişi kimi davranmaq, arxadan vurmamaq, düşmənlə göz-gözə döyüşmək kimi xüsusiyyətlər məhz mərdlik əlamətləri idi. Lakin mərdlik yalnız fiziki təhlükə anında davranış ilə bağlı deyil, bu həm də mənəvi davranış nümunəsidir. Mənəvi mərdlik həqiqəti demək, təzyiqə baxmayaraq prinsiplərdən dönməmək,

haqsızlığa qarşı çıxmaqdır. Bu tip mərdlik çox vaxt fiziki cəsarətdən daha çətin hesab olunur. Mərdlik hər mədəniyyətdə fərqli anlam və çalar daşıyır. Məsələn, Şərq mədəniyyətində mərdlik namus, sözə sədaqət və qeyrət ilə əlaqələndirilir. Qərb düşüncəsində isə daha çox fərdi cəsarət və prinsipiallıq vurğulanır. Amma bütün mədəniyyətlərdə ortaq məna var: mərd insan təhlükə və ya çətinlik qarşısında geri çəkilməyən, nə olursa olsun, həmişə haqlının yanında olan insandır.

Fərman Eyvazlının "Qaçaq Kərəm" əsərində məşhur bir dialoq yer alır. Pristav Həsən bəy Qaçaq Kərəmin ailəsinin sürgün qərarını verəndə onun anası Fəxrənsəni kənd meydanında dindirərkən istehza ilə belə deyir: "De görüm yenə Kərəm kimi oğul doğa bilrəsənmi?" Ana isə qürurla: "Kərəm kimi nər doğmağa İsgəndər kimi ər gərəkdir. Qatır cinsindən ayğır törəməz!"- cavabını verir. Fəxrənsə xanım, oğlunun cəsarətinin atası İsgəndərin mərdliyindən qaynaqlandığını bir cümlə ilə vurğulayır. Bu cavab, Kərəmin xalqın gözündə sadəcə bir qaçaq deyil, şərəfli və igid bir nəslin mərd davamçısı olduğunu simvolizə edir. Mərdlik anlayışı tarixən yazıçıların, şairlərin ən çox müraciət etdiyi mövzu olub. Çünki bütün dövrlərdə zülm edən, zülm görən, bu zülmə etinasız qala bilməyənlər olub. Azərbaycan ədəbiyyatında mərdliyin ən qədim və güclü nümunələrindən biri "Kitabi Dədə Qorqud"da təsvir edilib. Burada mərdlik üç xüsusiyyətlə təqdim olunur: qorxmazlıq, sözə sədaqət, vətəni və ailəni qorumaq. Məsələn, oğuz igidləri, Basat və Bamsı Beyrək kimi qəhrəmanlar təhlükədən qaçmırlar, dostluğa və sözə xəyanət etmirlər, zəifləri qoruyurlar. Bu dastanda mərdlik yalnız döyüş bacarığı deyil, kişilik və mənəvi bütövlük kimi təqdim edilir. Sıradan bir çobanın xarakterindəki mərdlik xüsusiyyəti belə dastanı oxuyarkən insanın bütün hiss və duyğularına sirayət edir.

Azərbaycan ədəbiyyatının sütunlarından biri olan Nizami Gəncəvinin əsərlərində mərdlik daha çox ədalət və mənəvi ucalıq kimi təqdim olunur. Xüsusilə "İsgəndərnamə" və "Xosrov və Şirin" əsərlərində qəhrəmanı ədalətli, zəifləri müdafiə edən, hakimiyyəti şəxsi mənfəət üçün istifadə etməyən kimi təsvir edilir. Nizami üçün mərdlik hakimiyyət və gücdən daha üstün mənəvi keyfiyyətdir. Məhəmməd Füzuli poeziyasında mərdlik daha çox sədaqət və mənəvi dözüm kimi təqdim olunur. "Leyli və Məcnun" əsərində Məcnunun sevgidə dönməzliyi sevgiyə xəyanət etməmək, çətinlik qarşısında geri çəkilməmək kimi təsvir olunur. Bu baxımdan Füzuli də mərdliyi ruhi sədaqət və dözümlülük kimi göstərir.

Cəlil Məmmədquluzadənin əsərlərində mərdlik daha çox sosial cəsarət kimi göstərilir. Məsələn, "Ölülər" əsərində cəmiyyətin qorxaqlığı tənqid olunur, həqiqəti deməkdən çəkinməyən insanlar müsbət qəhrəman kimi təqdim edilir. Burada mərdlik ictimai cəsarət və düşüncə azadlığı kimi izah olunur. Səməd Vurğun poeziyasında mərdlik daha çox vətənpərvərlik və qəhrəmanlıq ilə bağlıdır. Xüsusilə "Vaqif" əsərində sözünə sadiq qalmaq, xalqın taleyinə sahib çıxmaq mərdliyin əsas xüsusiyyətləri kimi təqdim olunur. Doğru sözündən dönməyən Nəsimi, ona yalnız doğruları və sözündən dönməməyi öyrədən Nəimi, dövrümüzdə vətən uğrunda şəhid olan minlərlə gənc - hər biri mərdliyin nümunələri deyilmi?

Folklorumuzda mərdliklə bağlı çox təsirli bir ifadə var, bu ifadə xalq qəhrəmanı Koroğlunun dilindən nəql edilir. Koroğlu ömrünün ahıl çağında bir kəndlinin əlində ilk dəfə tüfəng görür. Kəndli tüfənglə öküzü vuranda Koroğlu başa düşür ki, artıq döyüşün, mübarizənin də qaydası dəyişib. Bu zaman saz götürüb belə bir qoşma deyir:

"Tutulur məclisdə igidin yası,
Kor olur qılıncı, polad libası.
Gəlib bic əyyamı, namərd dünyası,
Mənmi qocalmışam, ya zəmanəmi?"
Tüfəng çıxdı, mərdlik getdi, hay haray!"

Bu epizod qılınc dövrünün sonu, mərdliklə vidalaşmaq kimi izah edilir. O vaxta qədər döyüşdə igidlik, güc, üzüzə vuruşmaq əsas idi. Arxadan vurmaq, bərabər olmayan güclə döyüşmək kişilik hesab edilmir, mərdliyə ləkə sayılırdı. Texniki silahların dövründə mərdlik anlayışı da dəyişir, tüfəng uzaqdan öldürməyə imkan verir. Bu isə igidlik yox, texnika üstünlüyü deməkdir. Koroğlu bunu yalnız silah dəyişikliyi kimi yox, zəmanənin dəyişməsi kimi görür və deyir ki, artıq "namərd əyyamı" gəlib.

Tariximizin ən mərd insanının mərdliyini bu yazıda xatırlamamaq olmazdı. Babək Xürrəmi Azərbaycan tarixində mərdlik, azadlıq və əyilməz iradə simvolu kimi tərənnüm olub. Babək ilə bağlı tarixdə tez-tez xatırlanan mərdlik epizodlarından biri onun əsir düşdükdən sonra göstərdiyi davranışdır. Azərbaycanın bütövlüyü uğrunda uzun illər qəhrəmanlıq göstərən Babək xəyanət nəticəsində tutulub ağır işgəncələrlə edam edilir, əzaları növbə ilə kəsilir. Babəkin ilk qolları kəsilir, bundan sonra o, üzünü yanında göl kimi yığılan qanına batırır. Ətrafdakılar bunun səbəbini soruşanda Babək belə cavab verir: "İnsan qan itirəndə rəngi ağarar. Mən istəmirəm ki, düşmənlər məni qorxudan ağarmış zənn etsin".

Əslində mərdlik, dürüstlük, fədakarlıq və sözünə əməl etmək kimi dəyərləri özündə ehtiva edən, dövrə və zamana görə transformasiya olmayan anlayışdır. Bir qədər cild dəyişdirir, bir qədər də sayı azalır, lakin insanlığın sağ qaldığı müddətcə, donu dəyişdirilmiş formada olsa da, mövcud olmağa davam edir. Günümüzdə atom bombası ilə bir-birini hədələyən ölkələr, ikiüzlü siyasət, müharibə zamanı sivil ərazilərin bombalanması da mərdliklə nə qədər tərs-mütənasib olduğunun göstəricisi deyilmi?

Mərdliyin bu qədər qəhət olması bir az da süniləşən münasibətlərdən, rəqəmsallaşan ünsiyyətdən qaynaqlandı sanki. Dürüstlüyün üz-üzə, səmimi şəkildə anlaşılması daha rahat ikən araya uzaq məsafələr və rəqəmsal münasibətlər girdi. Bəlkə də məsafələrin çoxalması və ünsiyyətin azalması itələdi bizi bu yola, çünki bir-birimizi görmədən, qarşımızdakının gözünə baxmadan daha çox aldada, namərdlik edə, zərər vura bilirik. İnsanların hisslərindən süi-istifadə edirik, yaxşılığına yamanlıq edirik, mərdliyinə namərdliklə qarşılıq veririk. Bəlkə də zaman, dövr deyə-deyə bəhanələr uydururuq, amma genlərimizin yüz illərdir bizə ötürdüyü xüsusiyyətləri özümüz korlayırıq. "Mühit bizi çirkləndirə bilər", "zəmanə xəmirimizə haram qata bilər" deyə özümüzə təskinlik veririk bəlkə, kim bilir? Axı min illərin sınağından keçən ata sözü boşuna deyilməyib: "mərd özündən bilər, namərd özgəsindən". Dürüstlüyün, mərdliyin birinci şərti günahı özündə axtarmaq deyilmi? Bizi nə vadar etdi ki, iynə atsan mərdin yaxasına sancılan bir cəmiyyətdən, günün günorta çağı çıraqla mərd adam axtarılacaq bir cəmiyyətə çevrildik?

*Lalə Mehralı*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# "Ali məktəblərin Bakıdan bölgələrə köçürülməsi zəruridir"





EKSPERT DANIŞDI

"Universitetlərin Bakının mərkəzindən kənara köçürülməsi məsələsi dövlət səviyyəsində müəyyən tədbirlər planında da öz əksini tapıb". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Ramin Nurəliyev deyib.

Onun sözlərinə görə, xüsusilə Bakı şəhərinin mərkəzində yerləşən ali təhsil müəssisələrinin şəhərdən kənar ərazilərə köçürülməsi planlaşdırılır. Bu addım, ilk növbədə, paytaxtda nəqliyyat sıxlığının azaldılmasına və infrastrukturun rahatlaşdırılmasına xidmət edəcək: "Beynəlxalq təcrübəyə baxdıqda görürük ki, bir çox inkişaf etmiş ölkələrdə universitetlər şəhər mərkəzində deyil, kampus şəklində şəhər kənarında yerləşir. Məsələn, İstanbul kimi böyük şəhərlərdə də universitetlərin əksəriyyəti geniş kampus ərazilərində fəaliyyət göstərir. Bu kampuslarda tədris binaları ilə yanaşı, laboratoriyalar, klinikalar, idman kompleksləri və tələbə yataqxanaları da yerləşir.

Eyni model Azərbaycanda da tətbiq oluna bilər. Yəni məqsəd universitetləri regionlara, məsələn, Quba və ya Gəncə kimi şəhərlərə köçürmək deyil, sadəcə Bakının kənar ərazilərində - Lökbatan, Suraxanı və ya Qobustan istiqamətlərində yerləşdirməkdir. Çünki hazırda ölkədə müəyyən nüfuza malik, beynəlxalq reytinqlərdə yer alan universitetlər var. Bu universitetlərin uzaq regionlara köçürülməsi onların prestijinə mənfi təsir göstərə bilər. Eyni zamanda, yüksək bal toplayan abituriyentlərin regionlara getmək istəməməsi, müəllim heyətinin həmin ərazilərə uyğunlaşmasında çətinliklər kimi problemlər yarana bilər.

Lakin universitetlər Bakının yaxın ətrafında yerləşərsə, bu problemlər minimuma enər. Həm müəllimlərin, həm də tələbələrin gediş-gəlişi rahat olar, eyni zamanda şəhər mərkəzindəki sıxlıq da azalır. Ali təhsil müəssisələrinin şəhər mərkəzindən kənara, lakin paytaxta yaxın ərazilərə köçürülməsi həm infrastruktur baxımından, həm də təhsilin keyfiyyətinin qorunması baxımından optimal yanaşma hesab olunur. Hesab edirəm ki, universitetlərin Bakı şəhərinin mərkəzindən kənara köçürülməsi şəhər infrastrukturuna müsbət təsir göstərə bilər. Artıq bunun müəyyən nümunələri mövcuddur. Məsələn, Dövlət Gömrük Komitəsinin Akademiyası və Bakı Mühəndislik Universiteti şəhərin mərkəzindən kənarda yerləşir və bu model uğurlu hesab olunur. Lakin hazırda bir sıra böyük ali təhsil müəssisələri - Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti - şəhərin mərkəzində yerləşir və bu da nəqliyyat sıxlığına müəyyən təsir göstərir. Bu baxımdan hesab edirəm ki, ilkin mərhələdə məhz bu universitetlərin şəhər mərkəzindən kənara, lakin paytaxta yaxın ərazilərə köçürülməsi daha məqsədəuyğun olar.

Digər tərəfdən, regionlarda da yeni ali təhsil müəssisələrinin yaradılması olduqca vacibdir. Məsələn, Quba-Xaçmaz iqtisadi rayonunda yeni universitetin açılması real ehtiyacdır. Eyni zamanda, Saatlı, Sabirabad, Şirvan kimi Aran bölgələrində, eləcə də Şamaxı, İsmayıllı və Qəbələ kimi bölgələrdə ali təhsil müəssisələrinin yaradılması müsbət addım olar. Burada vacib məqam ondan ibarətdir ki, mövcud nüfuzlu universitetlərin regionlara köçürülməsi onların prestijinə mənfi təsir göstərə bilər. Buna görə də bu universitetləri Bakının ətraf ərazilərində yerləşdirmək daha düzgün yanaşmadır.

Həm Bakının mərkəzində nəqliyyat sıxlığın azaldılması, həm də regionların inkişafı üçün paralel şəkildə iki istiqamətdə addım atılmalıdır. Paytaxtdakı universitetlərin şəhər kənarına köçürülməsi və regionlarda yeni ali təhsil müəssisələrinin yaradılması bu baxımdan əhəmiyyətli hesab olunur. Bu yanaşma həm təhsil sisteminin inkişafına, həm də ölkənin balanslı regional inkişafına ciddi töhfə verə bilər".

*Günel Fərzəliyeva*

# Ucuz alıb ziyana düşürük?

*Yuyucu tozlarda qiymət-keyfiyyət həqiqəti*



***Gündəlik məişətdə ən çox istifadə olunan vasitələrdən biri də yuyucu tozlardır. Bazarda həm bahalı, "premium" kimi təqdim olunan məhsullar, həm də daha ucuz alternativlər geniş yer tutur. İstehlakçılar isə tez-tez belə bir sualla qarşılaşır: bahalı yuyucu toz həqiqətən daha yaxşıdır, yoxsa ucuz məhsullar da eyni işi görə bilər? Bu sualın cavabı yalnız qiymətlə deyil, məhsulun tərkibi, istifadə qaydası və effektivliyi ilə bağlıdır. SİA mövzu ilə bağlı araşdırma edib.***

## Bahalı yuyucu tozlar: üstünlüklər və xüsusiyyətlər

Bazarda bahalı kateqoriyaya daxil olan məhsullara Tide, Persil, Ariel kimi markalar daxildir.

**Üstün cəhətləri:**

-Daha güclü təmizləmə formulları (enzimlər, aktiv maddələr çox olur)
-Çətin ləkələri daha effektiv çıxarma qabiliyyəti
-Aşağı dozada belə təsirli olması
-Müxtəlif ehtiyaclara uyğun variantların olması (həssas dəri, soyuq su, ağır ləkələr və s.)

Araşdırmalara görə, bu tip məhsullar müstəqil testlərdə ən yüksək təmizləmə nəticələrini göstərir və bazarda "premium" seqment hesab olunur.

Bahalı məhsul hər zaman daha sərfəli demək deyil. Bəzən onların üstünlüyü yalnız konsentrasiyada olur - yəni az istifadə etməklə eyni nəticə əldə edilir.

## Ucuz yuyucu tozlar: zəif tərəflər və üstünlüklər

Ucuz və ya market brendi olan yuyucu tozlar daha çox aşağı qiymətə görə seçilir.

**Üstün cəhətləri:**

-Daha əlçatan qiymət
-Gündəlik, yüngül çirklər üçün kifayət edir
-Ailə büdcəsinə daha az yük salır

**Zəif tərəfləri:**

-Çətin ləkələrdə effektivliyi aşağı ola bilər
-Daha çox miqdarda istifadə tələb edə bilər
-Bəzi hallarda qoxu və ya əlavə kimyəvi maddələr daha zəif balanslaşdırılır

Maraqlı nəticə: bəzi testlər göstərir ki, ucuz məhsullar bəzən bahalı alternativlərlə rəqabət apara bilir və qiymət hər zaman keyfiyyət göstəricisi deyil .

## Əsas fərq nədədir?

Bahalı və ucuz yuyucu tozlar arasındakı fərq əsasən bu 3 məqamda ortaya çıxır:

*1. Tərkib və texnologiya*

Bahalı məhsullarda daha çox aktiv maddə və enzim olur.

*2. Dozaj və sərfiyyat*

Keyfiyyətli məhsullar az miqdarda istifadə ilə nəticə verir.

*3. Effektivlik*

Bahalı tozlar ağır çirklər (yağ, qan, torpaq və s.) üçün daha uyğundur.

## Vacib nəticə

"Bahalıdır = ən yaxşıdır" fikri tam doğru deyil

"Ucuzdur = keyfiyyətsizdir" demək də yanlışdır

Əsas məsələ düzgün seçim və düzgün istifadədir

Bəzi hallarda insanlar ucuz tozdan çox istifadə edir və nəticədə xərcləri artır.

Halbuki keyfiyyətli məhsul az miqdarda daha effektiv ola bilər.

***Ayşən Vəli***

# Qohum evliliyi ilə bağlı qadağanı pozanları hansı cəza gözləyir?

*VƏKİL AÇIQLADI*



Azərbaycanda qohum evlilikləri məsələsi illərdir həm hüquqi, həm də sosial müstəvidə müzakirə olunan mövzulardan biridir. Qanunvericilik yaxın qohumlar arasında rəsmi nikahın bağlanmasına məhdudiyyət qoysa da, bu qadağanın praktikada necə tətbiq olunduğu və pozuntulara qarşı hansı addımların atıldığı cəmiyyətdə müxtəlif suallar doğurur. Xüsusilə, qeyri-rəsmi münasibətlər fonunda bu məsələnin hüquqi tərəfi daha da aktuallaşır. Bəs, qohum evliliyi ilə bağlı qadağanı pozanları hansı cəza gözləyir?

Məsələ ilə bağlı vəkil Elnur Məmmədov SİA-ya açıqlamasında bildirib ki, qohum evliliyi ilə bağlı əslində hər hansı bir xüsusi cəza tədbiri nəzərdə tutulmayıb: "Yeni qadağa yalnız onunla bağlıdır ki, həmin şəxslərin nikahı dövlət qurumlarında qeydiyyata alınmır.

Onların nikahları rəsmiləşdirilmir, amma birlikdə yaşamalarına mane olan, bunu qadağan edən hər hansı bir cəza tədbiri də yoxdur. Onlar xaricdə evlənərək həmin ölkənin nikah orqanlarında rəsmiləşdirə bilərlər. Lakin Azərbaycanda bunu tanıda bilməzlər və eyni zamanda Azərbaycanda onların nikahı qeydə alınmayacaq.

Qeyd etdiyim kimi, xüsusi bir cəza tədbiri olmadığına görə, bunun qarşısını tam almaq mümkün deyil. Sadəcə, əgər hər hansı gizli və ya qeyri-qanuni yollarla, məlumatları yanlış təqdim etməklə nikahı qeydiyyata aldırmağa çalışsalar, bu halda həmin nikah etibarsız hesab ediləcək və etibarlılığı mübahisələndiriləcəkdir. Ola bilər ki, bəzi sənədləri gizlətsinlər, ata adı, baba adı və ya digər məlumatları fərqli təqdim etsinlər. Əslində bu, mümkün olmasa da, hansısa yollarla həyata keçirilə bilər. Lakin qeyd etdiyim kimi, belə hallarda həmin nikah etibarsız sayılacaq".

***Arzu Qurbanlı***

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**